**“Azerbaijan Open” beynəlxalq dağ xizəyi turniri keçirilib**

Yanvarın 8-də Azərbaycan Qış İdman Növləri Federasiyası və Şahdağ Turizm Mərkəzinin birgə təşkilatçılığı ilə Beynəlxalq Xizək Federasiyasının (FIS) təqviminə uyğun olaraq “Azerbaijan Open” beynəlxalq dağ xizəyi turniri keçirilib.

Turnirin ilk günündə idmançılar dağ xizəyinin slalom növündə yarışaraq yüksək nəticələr uğrunda mübarizə aparıblar. Günün yekunlarına əsasən, Gürcüstan təmsilçisi Nino Thklauri birinci yerə, İsveçli atlet Nikita Anner ikinci yerə, Özbəkistan xizəkçisi Kseniya Brejnaya isə üçüncü yerə layiq görülüblər.

Növbəti yarış günündə də slalom növündə gərgin mübarizə yaşanıb. Yekunda İsveçrə təmsilçisi Nikita Anner qalib olub. Qazaxıstanlı Dalel Talkunova ikinci, Gürcüstan idmançısı Nino Thklauri isə üçüncü pillədə qərarlaşıblar.

Turnirin son günündə idmançılar slalom kateqoriyasında birincilik uğrunda mübarizə aparıblar. Nəticələrə əsasən, Qazaxıstan təmsilçisi Kseniya Brejnaya birinci, Dalel Talkunova ikinci, Özbəkistan xizəkçisi Kseniya Qriqoreva isə üçüncü yeri tutublar.

Qeyd edək ki, turnirdə Azərbaycanla yanaşı İsveçrə, Macarıstan, Sloveniya, Gürcüstan, Hon-Konq, Səudiyyə Ərəbistanı, Türkiyə, Nepal, Özbəkistan və Qazaxıstandan ümumilikdə 20 qadın idmançı iştirak edib. Azərbaycanı yarışda Anastasiya Papatoma təmsil edib.